Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Mifik Böyük Tiqrandan sonra Qafqazda cəmi "iki millət" tezisi də Paşinyanı gülünc vəziyyətdə qoydu

***Faiq Ələkbərli:** "Tarixi savadsızlığı hər kəsə məlum olan Paşinyanın Tiqranın dövründə bu ərazilərdə ermənilərdən və gürcülərdən başqa xalq olmadığını deməsi tamamilə əsassızdır"*

**Tarix saxtakarlığı sevmir deyirlər. Doğrudur. Amma çox təəssüf ki, tarixi saxtalaşdıranlar var və onlar ən müxtəlif vasitələrlə tarixə saxtakarlıq donu geydirməyə çalışırlar. Ermənilər (haylar) 200 ilə yaxındır tarixi saxtalaşdırmaqla məşğuldurlar və bu neqativ prosesə cild-cild kitablar, metraj-metraj xəritələr çap ediblər.**

Çar Rusiyası tərəfindən Qafqaza köçürülən və bu torpaqlarda məskunlaşdıqdan sonra Azərbaycan ərazilərinə qarşı iddialar qaldıran, sonrakı dönəmlərdə torpaqlarımızı işğal edən ermənilər tarixi saxtalaşdırma sahəsində artıq liderdirlər. Artıq tarixi saxtalaşdırma siyasəti Ermənistan dövlətinin gerçək bir ideologiyasına çevrilib. Bu toplum yalana o qədər aludə olub ki, o, yalanları beynəlxaq tribunalardan da səsləndirir. Sözsüz ki, onların bu yalanları ifşa olunur, amma yenə də yalan danışmaqda davam edirlər. Fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında baş tutan debatda da Paşinyan erməni xislətinə sadiq qalaraq yalan danışıb. Bu dəfə o qədər ağ yalan danışıb ki, bütün dünyanı özünə güldürüb. Tarixi bilgisi çox zəif olan, siyasi cəhətdən hazırlıqsız Paşinyanın budəfəki uydurması Azərbaycan tarixçilərini hiddətləndirib. Qeyd edək ki, paneldə Paşinyanın "Cənab Prezident, bu, o qədər də konstruktiv olmadı. Lakin mən deyərdim ki, Böyük Tiqranın dövründə bizim regionda yalnız iki millət var idi: ermənilər və gürcülər" - deməsi tarixçilər və politoloqlar tərəfindən erməni Baş nazirin savadsızlığı, məlumatsızlığı və məlumatsızlıq üzərində qurulan növbəti saxtakarlığı kimi qiymətləndirilir. Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, Cənibi Qafqazın ən qədim sakini elə Azərbaycan türkləridir. "Paşinyanın belə bir açıqlama verməsi təsadüfi deyil. Bu, gürcülərin, ermənilərin və onların tarixən dayaqları olan Rusiya Federasiyasının bizə qarşı həyata keçirdiyi siyasətin nəticəsidir. Onlar həmişə belə bir siyasət yürüdüblər ki, türklər Qafqaza və Anadoluya gəlmədirlər. Əslində isə belə deyil və Azərbaycan türkləri Cənubi Qafqazın, Anadolunun yerli əhalisidir. Əli hər yandan çıxan və yalan uydurmaqdan başqa bir iş bacarmayan Paşinyanın dediyi Tiqrana gəlincə isə, o, eramızdan əvvəl, ikinci əsrdə Parfiya dönəminə (o həm də Roma imperiyasının vassalarından biri idi) aiddir.

Paşinyanın Azərbaycan türklərinin Cənibi Qafqaza gəlmə olduğunu iddia etməsi tamamilə əsassızdır. 200 ildir guya Azərbaycan türkləri bura xüsusən də Səlcuqlar dönəmində gəlib yerləşib, "yerli xalq olan" erməniləri, gürcüləri, farsdilli və qafqazdilli xalqları türkləşdirib kimi yanlış siyasət aparılır. Bir şey dəqiqdir ki, Azərbaycan türkləri, ən azından, 4-5 min ildir bu torpaqlarda dövlət qurublar. Burada türklərin Midiya, Manna, Kutilər kimi qədim, sonrakı dönəmdə Albaniya, orta çağlarda isə bir sıra dövlətlər qurması bəllidir. Biz o türk dövlətlərini indi, bütövlükdə, Azərbaycan dövləti adlandırırıq. Deyək Səfəvilər, Ağqoyunlu, Qaraqoyunlu və digər dövlətləri Azərbaycan dövləti adlandırsaq da, onlar türk dövlətləridir. O ki, qaldı ermənilərin iddia etdikləri Tiqrandan başlayan dövlətçiliyə, o dövlətçiliyin ermənilərə heç bir aidiyyəti yoxdur. O, Parfiyanın tərkibində olan kiçik bir çarlıq idi, müstəqil deyildi, gah Romadan, gah da Parfiyadan asılı idi.

Ermənilər həmişə Azərbaycan türklərini (Anadolu və digər türkləri də ) bura "gəlmə" elan etməklə guya müəyyən üstünlük qazanmaq istəyirlər. Lakin bunun heç bir əsası yoxdur. Tarixdə mövcud olan dövlətlərin də heç birinin indiki ermənilərə və Ermənistana dəxli yoxdur. Ermənistanı ermənilər Hayastan adlandırırlar, bu da 1918-ci ildə qurulub. Qafqazda ermənilərin heç bir dövləti olmayıb, dünyanın başqa bir yerində də kiçik bir çarlıq olubsa belə, onun indiki ermənilərə heç bir aidiyyəti yoxdur. Sadəcə, onlar bunu öz adlarına çıxırlar. Necə deyərlər, onlar özləri tarixi saxtalaşdırırlar, digər tərəfdən də əsassız uydurmalarla bizi ittiham edirlər. 1918-ci ilə qədər ermənilərin Cənubi Qafqazda dövləti olmayıb".

F.Ələkbərli hesab edir ki, ümumiyyətlə, Azərbaycan tarixçiləri özləri də tarixə, keçmişə baxışda daha dərin bilgiyə malik olmalıdırlar ki, düşmənə danışmaq üçün heç bir əsas verməsinlər. Müsahibimiz təəssüflə vurğuladı ki, Sovet dövründə yazılan tarix kitablarında bizə təlqin edilən saxta tarixdən əl çəkməliyik. "Bütün dünya Midiya dövlətini bir türk dövləti olaraq qəbul edir. Midiya da, ən azından, e.ə. 8-7-ci əsrlərdə mövcud olub. O xüsusən 7-ci əsrdə daha qüdrətli bir dövlətə çevrilib. Bu cür əsassız iddialara qarşı özümüz vahid bir siyasət ortaya qoyaq ki, Paşinyan kimilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə imkan verməyək. Tarixi savadsızlığı hər kəsə məlum olan Paşinyanın Tiqranın dövründə bu ərazilərdə ermənilərdən və gürcülərdən başqa xalq olmadığını deməsi tamamilə əsassızdır, Cənubi Qafqazda mövcud olan qədim dövlətləri türklər qurublar" - deyə F.Ələkbərli bildirdi.



*"1918-ci ilə qədər ermənilərin Cənubi Qafqazda dövləti olmayıb"*

Qeyd edək ki, başqa tarixçilər də Paşinyanın yalan danışdığını və onun dediklərinin heç bir faktlara söykənmədiyini qeyd edirlər. Tarixçilər vurğulayırlar ki, ermənilər e.ə. 2-ci əsrdə Artaşesin dövründə guya qısa müddət ərzində müsəqil dövləti olduqlarını da iddia edirlər, əslində isə onların müstəqil dövləti olmayıb.

AMEA-nın müxbir üzvü mərhum alim İlyas Babayev yazıb: "E.ə. 96-95-ci illərdə Parfiya hökmdarları yanında girov olmuş II Tiqran şübhəli sazişlər vasitəsilə hakimiyyətini yaradır. Azacıq qüvvətlənən kimi, Suriyaya doğru hərəkət edir və bir neçə şəhəri ələ keçirir. E.ə. I əsrin 69-cu ildə Roma sərkərdəsi Lukullun başçılığı ilə şərqə doğru yürüş başlayır. Lukull Dəclə çayının yuxarı axarında yerləşən Tiqranakert şəhərini dağıdır. Erməni tədqiqatçısı Sarkisyan yazırdı ki, bu Tiqranakert şəhəri e.ə. 87-ci ildən tez olmayaraq salınmışdı. II Tiqran Qafqaza heç vaxt yürüş etməyib. Təbii ki, buna görə də Tiqranakert şəhəri Qafqazda olmayıb. Lukull Romaya çağırıldıqdan sonra növbəti yürüşü Pompey həyata keçirir və Tiqranı ağır məğlubiyyətə uğradır. Tiqran bütün xəzinəsini Pompeyə təqdim edir, özü də onun qarşısında diz çökür. Yəni ermənilərin Qafqazda heç bir dövləti yox idi. Təbii ki, insanlar müxtəlif ərazilərə səpələndiyindən, burada da ermənilər ola bilərdi. Amma dövlətləri yox idi. "Dənizdən-dənizə Böyük Ermənistan" isə, sadəcə, xülyadır..." Bəzi tarixçi və politoloqlar isə hesab edirlər ki, bu gün Paşinyanın və ermənilərin "Böyük Tiqran" adlandırdıqları I Tiqran isə, ümumiyyətlə, milliyyətcə hay deyil. O, Əhəmənilər sülaləsindən fars Artabanın oğludur. Ermənilər böyük saxtakarlıqlar edərək onu "Böyük Ermənistanın" müzəffər çarı kimi bütün dünyaya yalanla tanıtmağa çalışırlar.

Politoloq Nəzakət Məmmədova Paşinyanın Tiqranla bağlı açıqlamasından sonra yazılarından birində qeyd edir ki, "Tiqran" sözünün özü belə, erməncə deyil, "Tiqr" (Dəclə) çayının adından götürülüb ki, bu da Midiya dilində "tiqris", yəni "ox kimi", "sürətli axın" deməkdir. "...Yəqin ki, nə Tiqran, nə də onun münəccimləri ağıllarına belə gətirməzdilər ki, əsrlər sonra saxtakar bir tayfanın törəmələri onu öz saxta tarixlərinə alət etmekdən çəkinməyəcəklər. 2020-ci ildə məzlum Tiqran saxta erməni propoqandasının aləti olmaqla Bavariyada xatırlanacaq, özü də ermənilərin ulu babası qismində.

"Tarixin atası" Herodot indiki Qafqazın ərazisini nəzərdə tutaraq yazırdı ki, "Hərbi müttəfiq olan farslar və midiyalılardan başqa, burada hökmranlıq etmək iqtidarında olan üçüncü bir dövlət yox idi". Strabon isə burada yaşayan iyirmi altı tayfanın adını çəkir ki, onların sırasında ermənilərə rast gəlinmir.

Yəqin ki, Herodot və Strabon tarixin və coğrafiyanın bu dərəcədə saxtalaşdırılmasını bilsəydilər, qəbirlərində fırlanardılar. Roma imperiyası guya ermənilərin imperiyası olan Great Armenia ilə "döyüşdüyünü" bilsəydi, barbarların hücumunu gözləmədən süqut edərdi.

Diplomat, tarixçi İlham Əliyev Bavariyanın paytaxtında dünyanın ən saxta ölkəsinin hələ də populizm canından çıxmayan jurnalist Baş nazirinə təkzibolunmaz faktlarla tarix dərsi keçdi. İlham Əliyev haqlı olaraq qeyd etdi ki, "Tarixi nöqteyi-nəzərdən, 1805-ci ildə Qarabağ xanı İbrahim xan Rusiya imperiyasının generalı Sisianovla saziş imzalayır. Bu sazişə əsasən, Azərbaycanın Qarabağ xanlığı müstəqil ölkə kimi Rusiya imperiyasının tabeçiliyinə keçir. Kürəkçay adlandırılan həmin sazişdə Qarabağın erməni əhalisi barədə heç nə deyilmir. 1813-cü və 1828-ci illərdə imzalanmış digər müqavilələr - Gülüstan və Türkmənçay müqavilələrinə əsasən, Azərbaycanın qalan hissələri Rusiya imperiyasının tərkibinə keçir. Dağıstan, Gürcüstan və Ermənistan da həmçinin. Beləliklə, bu, məsələnin tarixi tərəfidir. Daha sonra Rusiya imperiyasının süquta uğradığı, Gürcüstan və Azərbaycan demokratik respublikaları yaradıldığı zamanlarda Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə verdiyi ilk fərmanlardan biri Yerevanın Azərbaycandan Ermənistana verilməsi və onun Ermənistanın paytaxtı elan edilməsi ilə bağlı idi. Bu da, həmçinin, tarixi faktdır. Əgər siz kiməsə nəsə verirsinizsə, bu, o deməkdir ki, həmin o nə isə sizə məxsus olub!" Söz alan Paşinyan isə görək nə deyir: "Erməni kralı Böyük Tiqran romalı hərbi lider Pompeylə danışıqlar aparan zaman bütün Cənubi Qafqazda və bütün dünyada Azərbaycan adlı ölkə olmayıb. Düşünürəm ki, çox uzağa getmək o qədər də düzgün deyil. Çünki mən daha uzağa gedə bilərdim və misal üçün, eramızdan əvvəlki 400-cü ildən başlaya bilərdim. Lakin mən bunu etməyəcəyəm. Çünki bunun düzgün yol olduğunu düşünmürəm".

Doğrudur, düzgün yol deyil, çünki debatın əvvəlində opponentinin tarix bilgisini görən və uduzacağını jurnalist intuisiyası ilə hiss edən Paşinyan söhbətin məcrasını dəyişməyə çalışır, amma yenə özünü dolaşığa salır və növbəti dəfə nokauta düşür. Niyə?! Qayıdaq, Paşinyanın xatırladığı eramızdan əvvəlki 400-cü ilə. Bu coğrafiyada nə baş verirdi?!

Qədim tarixə malik ölkə kimi görünmək üçün ermənilər hər vəchlə özünü qədim dövlətlərə, o cümlədən, Roma imperiyasına calaşdırmaq istəsələr də, bir çox tarixi mənbələr, o cümlədən, Roma tarixçilərinin, məsələn, Korneliy Tatsitin əsərlərində qeyd edilir ki, "Bu xalq istər xasiyyətinə, istərsə də coğrafi vəziyyətinə görə qədimdən ikiüzlü və riyakardır. Bunlar daim romalılara nifrətdən, parfiyalılara isə hikkədən az qala partlayırlar". Erməni tarixçiləri isə belə cəfəng fikirlər səsləndirirlər ki, guya "Böyük Ermənistanın" nümayəndələri Qədim Roma Senatında romalılarla yanaşı əyləşmək hüququna malik yeganə əcnəbi xalq olublar. Hətta Romada Kolizeyin yaxınlığındakı qədim dünyanın xəritəsində "Armenia" Romanın yaxın müttəfiqi kimi göstərilir. Lakin həmin Armenianın indiki ermənilərlə, yəni haylarla heç bir etnik-dövlətçilik bağlılığı yoxdur. Bu ona bənzəyir ki, Misirdə mumiyası ehramlardan tapılmış fironları, məsələn, Tutanxamonu kopt xalqının nümayəndəsi kimi təqdim edəsən..."

N.Məmmədova qeyd edir ki, digər bir ilkin orta əsr erməni tarixçisi Moisey Xorenasin yazır: "Biz haylar kiçik, azsaylı, zəif və başqalarının hakimiyyəti altında yaşayan xalqıq". "Paşinyan isə bir çox xəstə təxəyyüllü erməni kimi utanmazcasına iddia edir ki, Qafqazda qədim dövrlərdə guya azərbaycanlılar olmayıb, yalnız ermənilər və gürcülər olub. Halbuki, XIX əsr məşhur tədqiqatçısı İ.Şopen yazır ki, "Ermənilər Ərməniyyənin qədim sakinləri deyillər, onlar Assuriyadan gəlmədirlər". Bu coğrafiyada azərbaycanlıların gəlmə olduğunu iddia edən Paşinyan guya gürcülərin və ermənilərin köklü xalq olduğunu deməklə öz savadsızlığını ortaya qoyub, növbəti dəfə Herodotu və Strabonu qəbirdə fırlanmağa məcbur etdi. Halbuki, onlar saxta tarix yaratmaqla gürcü tarixini də mənimsəməyə cəhd göstərirlər..." - deyə tanınmış politoloq qeyd edib.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**